**UOT 81'367**

# ELLİPTİK CÜMLƏLƏRİN ÜSLUBİ-KOMMUNİKATİV İMKANLARI

**Şahnabad İSMAYIL***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 iyul 2024; çapa qəbul edilmişdir: 5 sentyabr 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 24th of July, 2024; accepted: 5th of September, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *elliptik, yarımçıq cümlə, nitq, dialoq, replika*

## Giriş

Elliptik cümlə danışıq dilində geniş istifadə edilir, eyni zamanda kommunikativ situasiyaların çox böyük spektri üçün səciyyəvidir. Bu cümlələr cüttərkibli və təktərkibli cümlələrin xüsusi struktur-semantik tipləri əsasında formalaşır və sabitləşir. Elliptik cümlə bütün dillərdə stabilləşmiş, dil-nitq sistemində funksionallaşa bilmişdir. Ellipsisləşmədə psixoloji motiv və emosional çalarlıq aparıcı rol oynayır və bunlar bir-birini qarşılıqlı şərtləndirir. Bu cümlələr kommunikativ-üslubi məzmuna malikdir. Nitq aktında onlardan üslubi məqsədlər üçün istifadə olunur, qənaət və lakoniklik təmin edilir.

Elliptik cümlələr sintaktik səviyyədə emosional və qiymətləndirici məna ifadə edir, nitqdə dinamizm, təbii söhbət intonasiyası yaradır. Ellipsis mənaya görə asanlıqla bərpa olunan cümlə üzvlərindən birinin buraxılmasına əsaslanan sintaktik fiqurdur. "Ellipsisin vasitəsilə informasiya cərgəsi daha dəqiq qurulur, mənanın detallaşmasına yardım edən sinonim əvəzetmələr vasitəsilə həmin informasiya cərgəsinin dəyişməsi baş verir" [11, s. 26].

Elliptik söyləmlər müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik xüsusiyyəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır. Elliptik konstruksiyalar nitqdə bəzi hissələr olmadan belə başa düşülə bilən bir ifadəni təmin edir. Bu cümlələr elə sintaktik konstruksiyalardır ki, müəyyən üzvlər o tərkibdən buraxılsa da, mənanı, fikri mühafizə edərək saxlayır. Kontekstdən təcrid edilsə də, belə cümlələr konkret nitq aktını təmin edir.

Elliptik cümlə bütöv cümlərlə müqayisədə meydana çıxır. Bu konstruksiyalar strukturca yarımçıq, semantik cəhətdən bütövdür. Danışıqda elliptik cümlələr dildənkənar gerçəklik situasiyası ilə bağlılıq nümayiş etdirir, onların semantikası mürəkkəb, situativ-istiqamətli və kommunikativ xarakter daşıyır.

## 1. Dilçilkdə elliptik anlayışı

Dünya dilçiləri bu dil faktının təbiətindən çıxış edərək onu müxtəlif cəhətdən xarakterizə etməyə çalışmışlar. R.Yakobson ellipsisi "anaforik sıfır" adlandırır [10, s. 300]. S.Adler ellipsisi sintaqmatik sıxılma və ya anaforik ellipsis adlandırır [8, s.53]. İ Mardha görə ellipsis kitab adlarında, gündəliklərdə, reklamlarda, teleqramlarda, reseptlərdə, lüğətlərdə, kataloqlarda, başlıqlar kimi afişa və etiketlərdə və s.-də rast gəlinən linqvistik deyim növüdür [16, s.12].

* *filologiya üzr fəlsəfə doktoru, Azərbaycan Dövlət və Neft Sənaye Universiteti*
e-mail: sh.ismayil77@gmail.com
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.026

Akad. K.M.Abdullayev "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı kitabında "ellipsis ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər" kimi qiymətləndirir. Dilçinin fikrincə, "elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur və məhz belə bir yoxluq ellipsisli komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır" [1, s. 235-238].

Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, elliptik cümlələr danışıq dili cümlələrinin özünəməxsus tipikləşmiş formalarıdır, onların xüsusi struktur tipləri özlüyündə tam cümlələrin normasının pozulmasını təmsil etmir. Dilçi qeyd edir ki, ""elliptik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya yerinə yetirirlər" [6, s. 28].

Rus dilçisi A.İ.Smirnitski isə quruluş elementləri – sözönülər, artikllər, bağlayıcılar, köməkçi feillərin olmadığı cümlələri elliptik cümlələr hesab edir [13, s. 100].

F.Y.Veysəllinin fikrincə, "elliptik cümlələr qrammatik cəhətdən tam formalaşmadığına görə onlara parselyativ və ya parazitiv cümlələr də deyilir" [5, s. 27].

Ellipsis dildə qənaət prinsipinə əsasən mövcuddur. Cümlənin tərkibində qənaət prinsipinin özünü göstərməsi, ilk növbədə, cümlənin bu və ya digər üzvünün ellipsisə uğraması hesabına baş verir. "Ümumi linqvistika və fransız dili məsələləri" adlı kitabında qənaət prinsipini konspektual və situativ aspektlərdə araşdıran fransız dilçisi S.Ballinin fikrincə, "Mətndə qənaət edilmiş söz, söz birləşməsi, cümlə modellərindəki ellipsisləri kontekstin, sintaktik bütövün köməyi ilə bərpa etmək mümkündür" [9, s. 99]. Dilçi həmçinin qeyd edir ki, "Ellipsis nitqdə dərk eldilən işarədir, əvvəlki kontekstlə əlaqədar və situasiya ilə bağlı yaranır" [9, s. 159-160] .

Elliptik formalar dilin müxtəlif səviyyələrində rast gəlinir. Tədqiqatçılar ellipsisin aşağıdakı növlərini fərqləndirilər:

1) nitqi ellipsis;
2) qrammatik ellipsis;
3) semantik ellipsis [14, s. 15].

Qrammatik ellipsis cümlələrdə komponentlərin ayrı-ayrı üzvlərinin ellipsisə uğraması nəzərdən tutulur. Semantik ellipsis dedikdə isə birləşmədə və ya cümlədə semantikasından asılı olaraq bir və ya bir neçə vahidin (mürəkkəb cümlədə isə komponentin) düşməsi nəticəsində meydana çıxır.

Başqa sözlə desək, semantik ellipsis bu və ya digər komponent formal dil vasitələrinin köməyi ilə özünün xüsusi ifadəsini tapmır, lakin fikir, cümlə avtosemantik olaraq qalır və informativ olaraq kontekstə müraciət etmədən də kifayət edir. Dilçilikdə semantik ellipsis termini ilə yanaşı, bəzən məlumatın sıxlaşdırılması (rus.-компрессия сообщения) terminindən də istifadə olunur. K.F.Skorodko kompressiya terminini geniş mənada belə izah edir: "…mətnin kompressiyası əsas məzmunun sıxılması şərtilə həcminin kiçildilməsidir" [12, s. 29].

Bayber və həmkarları cümlə daxilində işlənən ellipsisin mövqeyinə görə üç kateqoriyasını fərqləndirirlər: cümlənin əvvəlində (initial), ortasında (medial) və sonunda (final) işlənən ellipsis [15, s. 230].

Cümlənin əvvəlində işlənən ellipsis əsasən cümlənin subyekti ilə əlaqələnir. Subyektin buraxılması adətən bəndin əvvəlində baş verir və elliptik konstruksiya o qədər də mühüm olmayan informasiyanı əvəz edir. Medial ellipsis isə bəndin ortasındakı elementlərin ixtisar olunmasıdır. D. Biberin təklif etdiyi üçüncü tip ellipsis isə son ellipsis adlanır.

Dilçi Xomski "Dil və təfəkkür" əsərində dünya dilçiləri üçün həmişə aktual olan ellipsis hadisəsi haqqında qeyd edir ki, dilçilərin bir qismi bu fenomeni qrammatik rakursdan (ispan dilçisi F. Sançes), bəziləri sintaktik (ingilis alimi Merçant), digərləri isə psixoloji hadisə kimi (fransız filosofu D.Marse) qələmə vermişdir [4, s. 56-162].

Linqvistik mənbələrdə elliptik cümlələrə münasibətdə ortaq cəhət onların istənilən dildə monoloji, dialoji təzahür formalarından asılı olmayaraq, danışıq dili üçün xarakterik olmasından ibarətdir.

**2. Dialoq mətnlərində elliptik cümlələr**

Elliptik cümlələr bədii əsərlərin dilində çox işlənir, emosionallığı, ekspressivliyi təmin edir. Nitqin təşkilində, replikaların müəyyənləşdirilməsində bu vahidlərin rolu danılmazdır. Məlum olduğu kimi, bədii ədəbiyyatda ellipsis qrammatik obrazlılığın əsas göstəricilərindən hesab olunur. Belə ki, bədii əsərlərin, xüsusən şeir dilində sözlərin, şəkilçilərin ellipsisə uğraması, bir tərəfdən, nəzmin poetexniki tələbləri ilə bağlıdırsa, digər tərəfdən, söz sənətkarının fərdi yaradıcılıq spesifikası, bədii düşüncənin ifadə forması ilə əlaqədardır. Ona görə də, ayrı-ayrı sənətkarların yaradıcılığında bu dil faktı eyni xüsusiyyətləri ilə səciyyələnmir.

Linqvistik hadisə kimi ellipsis mətndə məntiqi-semantik bütövlüyün əmələ gəlməsi üçün əhəmiyyətli vasitədir. Bu dil hadisəsi bütövlükdə mətnin komponentlərinə müəyyən mənada təsir göstərir. Ellipsisin istifadəsi mətndə qeyri-müəyyənliyə səbəb olmamaq şərti ilə, məlumatın həm kodlaşdırılmasında, həm də deşifrə edilməsində vaxt və səylərin miqdarını azaldır, təkrardan və artıqlıqdan qaçır. Ellipsisin əsas məqsədi eyni mənanı daha az sayda sözə yükləməkdir. Dialoji nitq aktında ellipsisləşməyə baxaq: Məsələn:

*Arvad təlaşla onun üzünə baxdı:*

*-Hara?*

*- Vağzala.*

*-Xeyir ola?*

*-Uşaqları qarşılamaq lazımdır* [3, s. 303].

Dialoji nitqdə elliptik cümlələrdə buraxılan hər hansı üzv təsəvvürümüzdə mexaniki və yaxud instinkt şəkildə öz yerinə bərpa edilə bilir. Yuxarıda nümunə verdiyimiz dialoji nitqdə buraxılmış "getmək" xəbəri avtomatik şəkildə təsəvvürümüzdə canlanır.

Ümumiyyətlə, insan təsəvvürü ilə ellipsisləşmə arasında güclü və qırılmaz vəhdət mövcuddur. K.Abdullayev bu haqda belə qeyd edir ki, "təsəvvür ellipsis üçün müəyyən başlanğıc təşkil edən məqam kimi özünü göstərir. Məhz ellipsisin təsəvvürlə əlaqəsi ellipsisləşməni, bütövlükdə, dinamik səciyyəni şərtləndirir. Başqa sözlə desək, bu halda ellipsisin və təsəvvürün cümlə quruluşundan bizə məlum olan müstəqilliyini göstərir" [1, s. 93].

Bədii əsərlərdə cümlənin elliptik formaları, o cümlədən xəbərin ellipsisi faktı həm linqvistik, həm üslubi fakt kimi təzahür edir. Xəbərin ellipsisi həm sadə cümlədə, həm də paralel komponentli cümlələrdə özünü göstərir. Cümlədə xəbərin ixtisar edilməsi orada hərəkət və ya prosesin olmaması demək deyil. Buradakı hərəkət bütün kontekst vasitəsilə ifadə olunur. Bəzi konstruksiyalarda elliptiklik situativ xarakter daşıyır və bərpa oluna bilir.

Yazılı nitqdə ellipsisi doğuran səbəblərdən biri sintaktik paralellikdir. Dil fəaliyyəti üçün əsas tendensiya olan qənaətçilliyə uyğun olaraq, dildə yalnız anlaşma üçün lazım olan qədər ifadə vasitələri işlədilir. Həmcins üzvlü, yaxud paralel konstruksiyalı cümlələrdə eyni sözdən ibarət olan xəbərlərdən biri ellipsisə uğraya bilir. Bir dəfə işlənmiş komponent ellipsis nəticəsində digər paralel cümlələrdə buraxılır. Nümunələrə nəzər salaq:

*İrəli getdilər. Sevinə-sevinə, qaça-qaça, üzü günəşə, göyqurşağına doğru (getdilər), Göyqurşağı cazibədar idi* [3, s. 389]. *Dünənki uşaq kişi olmuşdu! Ancaq necə kişi (olmuşdu)?Atasının üzünə ağ olan, özbaşınalıq edib, nəslinə yaramayan bir qızla evlənən biqeyrət kişi(olmuşdu)!* [3, s. 92]. *Sonra gəlib çardağın altında oturdular; kişi ocaq yerinin yanına atılmış sacayağının üstündə (oturdu), qız isə onun ayaqlarının böyründə,*

*palazın qulağında (oturdu)* [2, s. 85].

Bu bədii nümunələrdə mötərizəyə alınmış sözlər bizim tərəfimizdən bərpa edilmişdir. Göründüyü kimi, ellipsisə uğramış, qənaətə uyğun olaraq onların işlədilməsinə ehtiyac olmamışdır.

Elliptik cümlələri, hər şeydən əvvəl, dialoq nitq meydana çıxarır, onlar bu mühitdə formalaşır. Dialoji nitq həmişə konkretliyi, qısalığı və ellipislə seçilir. Elliptik cümlələr dialoq üçün əsas xarakterik cümlə modeli hesab olunur. Bu cür konstruksiyalar tərəfdaşların adekvat ünsiyyətinə mane olmur. Dialoji nitqdə müsahiblərə məlum olanların buraxılması müşahidə olunur. Ona görə də bu nitqin semantikasında mətnaltı məna olur. Dialoji bütövün komponentləri arasında semantik əlaqə vasitəsi olan ellipsis, bir tərəfdən, ifadələr arasında semantik əlaqələri möhkəmləndirən, digər tərəfdən, dialoqun inkişafına təkan verən əsas semantik dayaqları ifadə etməyə xidmət edir. Nəsr mətnlərinin dialoqlarının cavab replikalarında elliptik söyləmlərin işləkliyi daha çox diqqəti cəlb edir və onların ifadə vasitələrinə görə təzahür formaları vardır.

Dialoqda işlənən ellipsin çox mühüm funksiyası vardır: ümumi təfərrüatları buraxmaqla, həmsöhbətlərin diqqəti yeni məlumatlara cəmlənir. İşlənmə tezliyi baxımından yarımçıq cümlələr emosionallıq, ekspessivlik istiqamətinə daha çox yönəldilir. Dialoji ünsiyyətdə ellipsisin müntəzəm işlədilməsi həmin vasitənin qanunauyğun və məqsədəuyğun olmasını sübut edir. Ellipsis danışanın öz fikrini ifadəsində qərarsızlığı və ya tərəddüdü, daha az söz sərf etmək və həmsöhbətində təsirli, intensiv emosiya yaratmaq istəyi ilə də izah oluna bilər. Belə ki, bu da fikrin natamam, parçalanmış ifadəsinə gətirib çıxarır.

Dialoji nitqdə elliptik cümlələr sual-cavab replikası zəminində formalaşır və verilən sualın məzmununa uyğun gəlir. Məsələn:

*Qaraxan irəli yeridi.*

*-Bu nə vid-fasondur! Nə olub sənə?!*

*-Qaçdı... Zümrüd...*

*-Hara?*

*-Bu yana, qara suyun axarına sarı... Mən qızları çağırdım, yolunu kəsduk, əlimizdən çıxdı...* [2, s. 222].

Bədii əsər çərçivəsində dialoq nitqi ellipslərin praqmatik xüsusiyyətlərini tam şəkildə aşkara çıxarır. Elliptik cümlələr dialoji diskursda aktuallaşır. Elliptik söyləmdən istifadə edən şəxs öz kommunikativ məqsədləri, müvafiq ünsiyyət qaydaları və bu məqsəd və qaydalar kontekstində ellipsisin uyğunluğu arasındakı əlaqədən çıxış edir.

Sual-cavab replikasında yaranma mühitinə və situasiyasına görə bir-birindən fərqlənən müxtəlif səciyyəli yarımçıq cümlələrdən istifadə olunur. Dialoji nitqin elliptik cümlələri bütöv cümlədə iştirak edən üzvlərdən biri, təkrarsoruşma və s. əsaslara görə qurulur. Belə ki, bu onların başlıca əlamətlərindəndir. Məsələn:

*-Səncə nə görsəm yaxşıdı?*

*-Pul, hə?*

*-Xeyr,*

*-Bə nə?*

*-Bir yekə yığın məktub!*

*İsfəndiyar kişi bunu dərhal başa düşdü:- Əsgər məktubu?*

*-Bəli, İsfəndiyar kişi, əsgər məktubu! Demə açıb oxuyurmuş, yığırmış...* [2, s. 49].

Elliptik sual bir həmsöhbəti digərinin sözlərinə hansısa şəkildə reaksiya verməyə məcbur edən, həmsöhbətlərdən birini digəri ilə birbaşa, dərhal qarşılıqlı əlaqəyə salan nitq aktıdır. Ellipsis emosional sintaktik hadisə olub, artıq fraza elementləri ixtisar olunur. Formal elliptik konstruksiyalar dialoji replikanın emosional təsiri ehtimalını artırır və

dinləyicinin emosional reaksiyasının danışanın niyyətinə adekvat olmasını təmin edir. Məsələn:

*-Bir rus deyib, İsfəndiyar əmi.*

*-Harda (deyib) ? Necə (deyib) ? Nə vaxt (deyib)? Nə urus (deyib)?... Əməlli- başlı danış görüm, agıl kəsən sözdümü?* [2, s. 44].

Cümlələrdə xəbərin ellipsisi müxtəlif məqamlarda ola bilir. Belə məqamların birində xəbər "var" predikativi ilə ifadə olunur. Fikrin daha lakonik və emosional-ekspressiv ifadəsi üçün sadə cümlədə həmin xəbərin ellipsisi baş verir. Məsələn: *Qocanın ürəyi çapalayıb bərk sancdı. Amma lap sakit danışdı: - Nə xəbər, qızım?* [2, s. 43].

Bəzən cümlədəki xəbərlə yanaşı, onunla əlaqədə olan digər cümlə üzvləri ellipsisə məruz qalır. Məsələn:

*-Güc-bəla ilə dilləndi:*

*-Bizim uşaqlardan (xəbər var)... Rəhmanla Bəhməndən orda bir şey (var)* [2, s. 56].

Danışıq dili üçün səciyyəvi olan elliptik cümlələrin yaranmasında intonasiya mühüm rol oynayır. Əksər məqamlarda elliptik cümlələr yüksək intonasiya ilə tələffüz olunur və belə tələffüz kontekstual şəraitlə bağlı olaraq müəyyənləşdirilir. Belə ki, elliptik söyləmi təşkil edən cümlə üzvləri vurğulanır və bütün konstruksiya yüksək intonasiya ilə tələffüz edilir. Nəticədə, elliptik cümlə danışanın duyğu və düşüncələrinin emosional mənzərəsini yaratmağa xidmət edir.

Nida cümlələrinin bəziləri sinkretik xüsusiyyətlərə malik olduqlarından bu cümlələrdə xəbərin ellipsisi özünü daha çox biruzə verir. Məsələn:

*Əllərini göyə qaldırdı. "Şükür (olsun) kəraminə, ey yeri-göyü yaradan, - dedi,- axır ki, məni mənzilə çatdırdın!"* [3, s. 390].

Dilçi A.Abdullayev ellipsisləşmə prosesində mətndə buraxılmış üzvləri "dəyərə malik yoxluq" [7, s. 306 ] kimi səciyyələndirir və nəsr mətnlərinin əmr cümlələrində də "dəyərə malik yoxluq" şəxs əvəzliklərində, xüsusən də ikinci şəxsin tək və cəmində daha çox özünü göstərir [7, s. 156-168]. Məsələn:

*-Yalan danışma! Otur, vəssalam! - deyib ərkyana əda ilə əmr etdi.*

*- Stolun başına keç! Bax, bura... Bax, belə!...* [2, s. 63].

Xəbərlə bağlı elliptikliyin bir qolu da xəbərin şəxs sonluğunun, yaxud "idi" hissəciyinin işlədilməməsidir:

*Birdən camaatın arasından meydançaya bir cüt oğlan çıxdı. İkisi də bəstəboy. İkisi də enlikürək* [2, s.11].

Bədii əsərlərdə ixtisarlaşma bütün cümlə üzvlərini əhatə edir. Nitq prosesi nəticəsində baş və ikinci dərəcəli üzvlərin ixtisar edilməsi ilə sintaktik normalar müəyyənləşir. Nəsr mətnlərində ekspessiv-emosional nitqdə elliptik cümlələrinin bir qismi dildə sabit işlənən ifadələrdən ibarətdir. Bu tip cümlələrdə müşahidə edilən qənaət halları mətnlərin xəbər zonasında özünü göstərir.

## Nəticə

Ellipsisin yaranma səbəbi bütün dillərdə ümumi xarakter daşıyır. Lakin hər bir dilin strukturuna müvafiq xüsusi elliptikləşdirmə üsulları vardır. Dilimizdə mövcud olan sintaktik konstruksiyaların - söz birləşmələri və cümlələrin struktur-semantikasında ellipsis hadisəsi əsas rol oynayır. Ellipsis bu və ya digər formada həm söz birləşmələrinin, həm də cümlələrin müxtəlif növləri üzrə müşahidə edilir.

Dilin bütün səviyyələrini əhatə edən elipsisləşmə nəsr mətnlərində işləklik intensivliyi ilə təzahür edir. Elliptik söyləmlər şifahi nitqdə çox zaman situasiyasız, yazılı nitqdə isə kontekstsiz müstəqil fikir ifadə edə bilir. Elliptik cümlələr dialoji nitqdə intonasiyanın nüvəsini təşkil edir və söyləmin dərk olunması üçün zəruri olan prosodik informasiyanı özlərində mərkəzləşdirir.

## ƏDƏBİYYAT


1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 284 s.
2. Hüseynov İ. Seçilmiş əsərləri. Üç cilddə. II c., Bakı: Azərnəşr, 1988, 368 s.
3. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. II c., Bakı: Azərnəşr, 1986, 480 s.
4. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. II c., Bakı: Mütərcim, 2008, 308 s.
5. Veysəlli F.Y., Kazımov Q.Ş., Kazımov İ.B., Məmmədov A.Y. Azərbaycan dilinin funksional qrammatikası: Sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. III c., Bakı: Prestige çap evi, 2014, 502 s.
6. Виноградов В.В. Некоторые задачи изучения синтаксиса простого предложения // Вопросы языкознания, 1954, №1, с. 3-29.
7. Абдуллаев А.З. Об афинитных конструксиях в тюркских языках // А.З.Абдуллаев, Советская тюркология, 1986, №2, с. 156-168.
8. Адлер С. Эллипс как инструмент аргументации // Обзор семантики и прагматики, 2003, №14, с. 81-82 .
9. Балли Ш. Общая лингвистика и вопросы французского языка / Ш.Балли, Москва, 1955, 412 с.
10. Вардуль И.Ф. Основы описательной лингвистики. (синтаксис и супрасинтаксис), М.: Наука, 1977, 350 с.
11. Реунова О.И. Эллипсис как лингвистическое явление: Монография. Пятигорск: Издво. ПГЛУ, 2000, 230 с.
12. Скородько К.Ф. Компрессия и текст. М.: Наука, 1969, 250 с.
13. Смирницкий А.И. Синтаксис английского языка. М.: Лититература на иностранном языке, 1957, 284 с.
14. Факторович А.Л. Выражения смысловых различий посредством эллппсиса. Харьков: Око, 1991, 88 с.
15. Biber D., Johanson S., Leech G., Condrad S. and Finegan E. Grammar of Spoken and Written English, Longman Pearson Education Limited, Essex. UK, 1999, 1203 pp.
16. Mardh I. Headlines on the Grammar of English Front Page Headlines. Gotab, Malmo,1980, 200 pp.


***Резюме***

***Шахнабад Исмаил***


***Стилистико-коммуникативные возможности эллиптических предложений***

Статья посвящена вопросу стилистико-коммуникативных возможностей эллиптических предложений. Эллипсис относится к основным средствам, характеризующим диалогическую речь. Эллипсис существует в языке по принципу экономии. Образность с бережливостью, возможности создания художественно-эстетических критериев существуют во всех слоях языка. Принцип экономии, наблюдаемый в художественном тексте, является наиболее ценным лингвистическим явлением, помогающим в сжатой, лаконичной, краткой передаче содержания, мыслей и образа мышления писателя. Интенсивность использования эллиптических предложений измеряется возможностью передачи передаваемой информации, лексической семантики в лаконичных, коротких предложениях.

Эллиптические предложения как живое выражение чувств и эмоций человека служат эмоциональности, динамичности, выразительности речи. Причина возникновения эллипсиса во всех языках имеет общий характер. Однако каждый язык имеет особые методы эллиптизации, соответствующие его структуре.

В статье также дается подробная информация о роли многих языковых и экстралингвистических факторов в возникновении этого языкового факта, особенно склонности языка к сбережению. Эллиптические предложения, имеющие уникальное положение в синтаксической структуре языка и многогранные функции, долгое время находились в центре внимания исследователей как мирового, так и азербайджанского языкознания. В письменности также в некоторой степени отражен и сравнительно проанализирован взгляд лингвистов на явление эллипса. Факт обсуждаемого языка обоснован конкретными примерами.

Явление эллипсиса играет важную роль в структуре-семантике существующих синтаксических структур азербайджанского языка. В той или иной форме эллипсис наблюдается как по различным типам определительных словосочетаний, так и по предложениям.

Тесная связь эллиптических предложений с деятельностью речи в диалоге требует функционально-семантического подхода к ней. Поскольку в эллиптических предложениях по составу обеспечивается семантическая полнота, они более независимы от других неполных предложений, на основе которых формируются устойчивые грамматические модели. Эллиптические предложения как средство выражения бережливости и эмоциональности в речи являются достаточно удачной конструкцией для того, чтобы говорящий оживил свою естественную речь.

**Ключевые слова:** *эллиптическое, неоконченное предложение, речь, диалог, реплика*

***Summary***

***Shahnabad Ismail***

***Stylistic-Communicative Possibilities of Elliptical Sentences***

The article is devoted to the issue of stylistic and communicative possibilities of elliptical sentences. Ellipsis refers to the main means of characterizing dialogic speech. Ellipsis exists based on the principle of saving in language. The possibilities of frugal imagery and artistic-aesthetic criteria exist in all levels of the language. The principle of saving observed in the literary text is the most valuable linguistic phenomenon that helps to give the content, the writer's ideas, and the way of thinking in a concise, concise, concise, concise manner. The intensity of the use of elliptical sentences is measured by the possibility of providing the delivered information, lexical semantics in laconic, short sentences.

Elliptical sentences serve the emotionality, dynamism, and expressiveness of speech as a living expression of human feelings and emotions. The reason for the emergence of the ellipse has a common character in all languages. However, there are special elliptical methods corresponding to the structure of each language.

The article also provides detailed information about the role of many linguistic and extralinguistic factors, especially the saving tendency of the language, in the creation of this language fact. Elliptical sentences, which have a unique position and multifaceted functions in the syntactic structure of the language, have long been the focus of researchers in both world and Azerbaijani linguistics. In the article, linguists' view of the phenomenon of ellipsis is reflected to some extent and analyzed in a comparative manner. The fact of the language in question is based on concrete examples.

The phenomenon of ellipsis plays an important role in the structure-semantics of syntactic constructions existing in the Azerbaijani language. Ellipsis is observed in one form or another for different types of both definite word combinations and sentences.

The close connection of elliptical sentences with the activity of speech in dialogue requires a functional-semantic approach to it. Since elliptical sentences provide semantic completeness in composition, they are more independent than other incomplete sentences, based on which stable grammatical models are formed. Elliptical sentences as a means of expression of speech saving and emotionality are a successful enough construction for the speaker to revive his natural speech.

**Key words:** *elliptical, incomplete sentence, speech, dialogue, replica*

Redaksiya heyətinin üzvü fil.ü.f.d. Musayev Nəsrəddin Musa oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.